**NABAT CƏFƏROVA**
**Pedaqogika elmləri doktoru**
**E-mail: Cafarova_nabat@ mail.ru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

# AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ

**Xülasə**

Azərbaycan dilinin tədrisində yeni innovativ metodlardan istifadə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafına səbəb olur. Azərbaycan dilinin tədrisi sagirddə dilə mükəmməl yiyələnmək, harada olmasından asılı olmayaraq, vətənini layiqincə təmsil etmək istəyi yaradır. Həmçinin şagirdin aramsız dəyişən şəraitə uyğunlaşması üçün zəruri bacarıqların əldə olunmasına şərait yaradır.

İnnovativ təlim metodları şagirdlərin ümuminkişafını təmin etməklə yanaşı, təlimin, o cümlədən Azərbaycan dili tədrisin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. İnnovativ təlim metodları dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metodlardan istifadə şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. İnnovativ təlim həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır.

Fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran innovativ metodlar şagirdlərin öz potensial imkanlarından maksimum istifadə etməsinə səbəb olur. Azərbaycan dilinin tədrisində motivasiya qismində ortaya gətirilmiş problemin həlli şagirdin daxili maraq və tələbat kimi çıxış edir.

**Açar sözlər**: qloballaşma, tədris, innovasiya, fəal təlim, interaktiv metodlar

Qloballaşma prosesinin, Avropaya inteqrasiyanın gücləndiyi indiki dövrdə bir və ya bir neçə dildə ünsiyyət qurmağı bacaran səxsiyyətin formalaşdırılması müasir məktəbin mühüm vəzifələrindən biridir. Həmçinin dil dərslərinin təşkilində müasiir təlim metodlarının tətbiqi aktuallıq kəsb edir.

Azərbaycan dilinin tədrisində innovativ metodlardan istifadə şagirdlərin kommunikativ bacarıqlarının yüksək səviyyədə inkişafına səbəb olur. Azərbaycan dilinin tədrisi şagirdlərin ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla nitq mədəniyyətinə yiyələnmələrini təmin edir. Belə ki, innovativ təlim metodlarından istifadə Azərbaycan dilində nitq bacarıqlarının formalaşdırılmasında müvəffəqiyyətin əldə olunmasının açarıdır.

İnnovativ təlim metodları şagirdlərin ümuminkişafını təmin etməklə yanaşı, təlimin, o cümlədən Azərbaycan dili tədrisinin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Yeni təlim metodları şagirdlərin fəaliyyətini stimullaşdırır, onların linqvistik biliklərini genişləndirir, ünsiyyət mədəniyyətinin formalaşmasında mühüm rol oynayır. Həmçinin onların real həyat şəraitinə uyğunlaşmasını, adaptasiya etməsini təmin edir, nitq bacarıqlarını inkişaf etdirir, həyatı vərdişləri qazanmalarına əlverişli şərait yaradır. Məhz bu yolla şagirdlərə öz fəaliyyətini təşkil etməyi öyrətmək, tədqiqat apara bilmək bacarıq və vərdişlərini inkişaf etdirmək, onların təxəyyülünü, məntiqi və tənqidi təfəkkürünü, yaradıcı potensialını yüksəltmək daha asan və səmərəli olur.

İnnovativ təlim metodları dərsin keyfiyyətini artırmaq üçün vacib bir vasitədir. Bu metodlardan istifadə şagirdlər üçün dərsi çox maraqlı və cəlbedici edir. İnnovativ təlim həm təlimin məzmunun öyrənilməsini, həm də bu məzmunun tətbiqini daha səmərəli edir, şagirdlərin dərketmə fəaliyyətini daha da fəallaşdırır.

Azərbaycan dilinin tədrisi sagirddə dilə mükəmməl yiyələnmək, harada olmasından asılı olmayaraq, vətənini layiqincə təmsil etmək istəyi yaradır. Həmçinin şagirdin aramsız dəyişən

şəraitə uyğunlaşması üçün təsiredici zəruri bacarıqların əldə olunmasına şərait yaradır. Yeni təlim metodları, fəal dərsin quruluşu, motivasiya nəticələrin əldə olunmasında mühüm rol oynayır.

Fəal dərsin quruluşuna nəzər salaq:

I mərhələ: Motivasiya, problemin qoyulması.

II mərhələ: Tədqiqatın aparılması.

III mərhələ: Məlumat mübadiləsi.

IV mərhələ: Məlumatların müzakirəsi və təşkili.

V mərhələ: Nəticlərin çıxarılması, ümumiləşdirmə.

VI mərhələ: Yaradıcı tətbiqetmə.

VII mərhələi: Qiymətləndirmə və ya refleksiya [3, s.30].

Bəs nə üçün dərsin birinci mərhələsi motivasiya adlandırılır? Ona görə ki, psixoloji amil olan motivasiya hər hansı fəaliyyətin mexanizmini işə salan sövqedici qüvvə polunu daşıyır. Azərbaycan dilinin tədrisində isə motivasiyanın rolu əvəzolunmazdır. Təlimin tədqiqi ilə bağlı əsərlərdə daxili (integrative) və xarici (instrumental) motivasiya növləri səciyyələndirilir. Adından məlum olduğu kimi xarici motivasiya xaricdən, daxili motivasiya şagirdin daxili maraq və tələbatlarından doğur. Fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran qüvvə motivasiya qismində ortaya gətirilmiş problemdir. Azərbaycan dilinin tədrisində motivasiyanın düzgün qurulması və ya istiqamətləndirilməsi şagirdlərin öz potensial imkanlarından maksimum istifadə etməsinə səbəb olur. Motivasiya müxtəlif, lakin bir-biri ilə sıx əlaqəsi olan faktorlardan asılıdır. Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmə qabiliyyətinin sərbəstliyi və müstəqilliyidir: şagird öz fikrini “Zənimcə…”, “Mənə belə gəlir ki,…”, “Mən belə hesab edirəm ki,…” sözlərindən istifadə etməklə ifadə edir [4, s.26].

Məlum olduğu kimi hər bir tədqiqata-dərsə başlayarkən problemi araşdırmaq lazımdır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılır. Tədqiqat sualı yeni bilgilərin kəşfinə aparan, “yolgöstərən” rolunu oynayır. Motivasiyada problemin qoyulması şagirdlərdə idrak fəallığının yaranması üçün mühüm addım hesab olunur.

Fəal təlimin mühüm xüsusiyyətlərindən biri müstəqil təlim, müstəqil inkişaf vərdişlərinə yiyələnmək imkanıdır. Bunun üçün qeyd olunanlar əsasdır: məntiqi düşünmə; ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma; müstəqil olaraq qərar çıxarma; ətrafda olanları yaradıcı surətdə dəyişmə; bilikləri müstəqil əldə etmə; praktik problemləri həlletmə; şəxsiyyətin inkişafına dair yeni məqsədlər qarşıya qoyma və s.[6, s.6].

İnnovativ metodlar yaradıcı, tədqiqata əsaslanan təlim prosesini ehtiva edir. Burada müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri kəşf edən, təlimin obyektindən subyektinə çevrilən tərəf kimi çıxış edir. İnnovativ təlim metodlarının tətbiq edildiyi dərs təlimdə iki tərəfin (müəllim və şagird) eyni zamanda fəal olması ilə xarakterizə edlir. Bu zaman ən çox işlənən metod “Beyin həmləsi”dir(Brain-storming). Bu metodun bir neçə texnikası vardır: şaxələnmə (klaster), əqli xəritə (mind map), hörümçək toru (web) və s.[2, s.129].

Beyin həmləsi metodunun üstünlüyü ondadır ki, burada az müddətdə ümumi məqsədlə bağlı müxtəlif ideyalar yaranır. Azərbaycan dilinin tədrisində rollu oyun, layihə, esse, inşa yazılar, insert, layihələr, şəkillər, modelləşdirmə, karusel, müzakirə, qrafik cədvəllər, Venn diaqramı, BİBÖ, iki hissəli gündəlik, beşlik(sinkvey) və s. metodların tətbiqi yüksək effekt yaradır. İnnovativ metodların tətbiqinin bir neçə başlıca xüsusiyyəti vardır.Məsələn:

- müəllim tərəfindən dərsin mahiyyətini açmağa atılan ilk addım olan problemli vəziyyətin yaradılması;
- problemli vəziyyətin həlli zamanı şagirdlərin tədqiqatçılıq imkanlarının inkişafı;
- müəllim tərəfindən verilən yeni biliklərin şagirdlər tərəfindən müstəqil dərk olunması;
- yeni biliklərin mənasının açılması və mənimsənilməsi üçün şəraitin yaradılması.

İnnovativ təlim metodları şagirdlərin dərs zamanı aktivliyini təmin etməklə yanaşı, şagirdi düşündürən vəziyyətin yaradılması, müəllim-şagird, şagird-şagird arasındakı ziddiyyətsiz əməkdaşlığa, fikirləri müstəqil yürütməyə, sərbəstliyə, nitq və təfəkkürün inkişafına, şüurlu

dərketməyə, biliklərin müstəqil əldə edilməsinə, biliklərin yaradıcı tətbiqinə və sübuta yetirilməsinə əsaslanır.

Fəal təlim prosesində müəllim bələdçi rolunu oynadığı üçün onun öhdəsinə bir çox vəzifələr düşür. Bu vəzifələrə müəllimin dərs prosesində sinifdə şagirdlərin fəal, müstəqil hərəkət etmələri üçün işgüzar şərait yaratması, sosial bərabərliyin, psixoloji mühitin nəzərə alınması, yaradılması, şagirdlərin narazıçılığına səbəb olmamaq üçün obyektiv qiymətləndirmənin aparılması və s. daxildir.

İnnovativ təlim metodları şagirdləri yeniliyi öyrənməyə həvəsləndirir, onların dərsə marağını artırır ki, bu da təlimin səmərəliliyini təmin edir. Bir dərs nümunəsinə nəzər salaq:

Standart: 1.1.1; 1.1.2; 1.2.2; 2.1.1

Mövzu: Alınma sözlər

Təlim nəticəsi: 1. Alınma sözlər mövzusunda danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır

2. Alınma sözlər haqqında dinlədiyi məlumatlardakı əsas faktları seçir.

3. Alınma sözlər mövzusunda fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır.

4. Alınma sözlər mövzusunda lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını müəyyənləşdirir.

İnteqrasiya: Ədəbiyyat, Həyat bilgisi

İş forması: kiçik qruplarla iş

İş üsulları: əqli hücum, Venn diaqramı, BİBÖ, klaster, müzakirə

Resurslar: xəritə, izahlı lüğət, iş vərəqləri, marker, pozan və s.

**Motivasiya:Problemin qoyulması**




Xəritə lövhədən asılır. Müəllim soruşur:

-Uşaqlar, xəritədə nə görürsünüz? (Fərziyyələr dinlənilir).

- Bəs həmin ölkələrin dillərinə aid sözlər bilirsinizmi? (Fərziyyələr dinlənilir).

- Dilimizdə ərəb, fars dillərinə aid sözlər hansılardır? (Fərziyyələr dinlənilir).

-Rus dilindən alınan sözlər hansılardır? (Fərziyyələr dinlənilir).

-Bəs Avropa dillərindən hansı sözlər dilimizə keçib? (Fərziyyələr dinlənilir).

**Tədqiqat sualı:** Nəyə görə dilimizə başqa dillərdən sözlər keçir?

**Tədqiqatın aparılması:** Şagirdlər sözlərlə qruplara bölünür. Hər qrupa iş vərəqi təqdim olunur.

**İş vərəqi 1**

1.Dilimizə hansı dildən daha çox söz keçib? Nə üçün?

2.Nəyə görə dilimizə çin dilindən keçən söz yoxdur

3.Alınma sölərə aid klaster qurun.

**İş vərəqi 2**

1.Hazırda dilimizə qonşu dillərdən sözlər keçə bilərmi?

2.Dilimizdən də başqa dillərə söz keçə bilərmi?

3.Alınma sözlər haqqında BİBÖ cədvəli qurun.

**İş vərəqi 3**

1.Alınma sözlər dilimizin lüğət tərkibini korlaya bilərmi?

2.Müasir türk dilindən keçən sözlər alınmadırmı?

3.Azərbaycan sözləri və alınma sözlərə dair Venn diaqramı qurun.

**İş vərəqi 4**

1.Dinlə bağlı sözlər, sizcə,hansı dildən keçib?

2.Alınma sözləri dilimizin ahəng qanununa uyğunlaşdırmaq mümkündürmü?

3. Alınma sözlərlə bağlı esse qurun

**Məlumat mübadiləsi:** Qrup liderləri öz işlərini təqdim edir və alınma sözlərə aid fikirlərini söyləyirlər.

**Məlumatın müzakirəsi:** Məlumatlar müzakirə olunur, milli və alınma sözlər qarışılıqlı müqayisə edilir, fikirlər əlaqələndirilir.

**Nəticə və ümumiləşdirmə:** Alınma sözlərə aid bütün fərziyələr müqyisə olunur, bəzi fərziyələrin təsdiq olunub-olunmaması haqqında nəticələr çıxarılır. Əldə olunan bilgilər ümumiləşdirilir, konkret nəticəyə gəlinir.

**Qiymətləndirmə və ya refleksiya:** Qiymətləndirmə meyarlar əsasında aparılır.

| **MEYARLAR** / **QRUPLAR** | 1 | 2 | 3 | 4 |
|---|---|---|---|---|
| Danışanın fikrini verdiyi suallar əsasında aydınlaşdırır | + | + | + | + |
| Dinlədiyi məlumatlardakı əsas faktları seçir | + | + | + | _ |
| Fikirlərini konkret fakt və nümunələrlə əsaslandırır | + | + | _ | + |
| Lüğətlərdən istifadə etməklə tanış olmadığı sözlərin mənasını məyyənləşdirir | + | + | + | + |
| Əməkdaşlıq | + | + | + | _ |

**Ədəbiyyat**


1. Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı: Dərələyəz-M, 2009
2. Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Elm və təhsil, 2016, 404 s.
3. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 410 s.
4. Həsənov M., Cəfərova N. Bəhmənova C.Kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı, 2017, 75 s.
5. Həsənov M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri və praktik məsələləri. Bakı, 2009, 104 s.
6. Qədimova X. İnteraktiv təlim metodları və onların tətbiqi yol. Bakı, 2003, 32 s.
7. Sue Leather. Step to Success. 2006
8. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). // Kurikulum, 2010, № 3, s.117-130.
9. Veysova Z. Fəal(interaktiv) təlim. Müəllim üçün vəsait, UNİSEF, 2009
10.

Н.Джафарова

**Использование инновационных методов обучения в преподавании Азербайджанского языка**

**Резюме**

Использование новых инновационных методов в преподавании азербайджанского языка приводит к высокому уровню развития коммуникативных навыков учащихся. Преподавание азербайджанского языка порождает желание в совершенстве овладеть языком на языке ученика, независимо от того, где он находится, достойно представлять свою родину. Это также дает студенту необходимые навыки для адаптации к меняющимся обстоятельствам. Активные/интерактивные методы обучения являются важным инструментом повышения качества преподавания, в том числе преподавания азербайджанского языка, а также предоставления учащимся общего развития. Активные/интерактивные методы обучения являются важным инструментом для повышения качества урока. Использование этих методов делает урок очень интересным и привлекательным для студентов. Активное/интерактивное обучение и его применение делает учебный контент более эффективным, и у студентов активизирует акт восприятия.  Инновационные методы, которые стимулируют активное мышление в процессе обучения и повышают познавательную активность студентов, способствует использования студентами своих потенциальных возможностей .. Решение проблемы, вызванной мотивацией в обучении азербайджанскому языку, является внутренним спросом и требованием студента.

Ключевые слова: глобализация, обучение, инновация, активное обучение, интерактивные методы.

N.Jafarova

**The use of innovative teaching methods in teaching the Azerbaijani language**

**Summary**

Using new innovative methods in teaching Azerbaijani language leads to a high level of development of communication skills of students. Teaching the Azerbaijani language gives rise to the desire to perfectly master the language in the language of the student, no matter where he is, to represent his homeland with dignity. It also gives the student the necessary skills to adapt to changing circumstances. Active/interactive teaching methods are an important tool for improving the quality of teaching, including teaching the Azerbaijani language, as well as providing students with general development. Active/interactive teaching methods are an important tool for improving the quality of a lesson. The use of these methods makes the lesson very interesting and attractive for students. Active/interactive learning and its application makes learning content more effective, and activates an act of perception in students. Innovative methods that stimulate active thinking in the learning process and increase the cognitive activity of students contribute to the use of their potential by students. Solving the problem caused by motivation in teaching the Azerbaijani language is the internal demand and demand of the student.

Key words: globalization, learning, innovation, active learning, interactive methods.

Redaksiyaya daxil olma tarixi: 01.04.2019
Çapa qəbul olunma tarixi: 01.04.2019
Filologiya elmləri doktoru, professor Fikrət Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur.